# AZƏRBAYCAN RESPUBLİKASI

# VERGİLƏR NAZİRLİYİ

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR İDARƏSİ

BEYNƏLXALQ TƏCRÜBƏLƏR VƏ İNNOVASİYALAR ŞÖBƏSİ

# Seçilmiş ölkələrdə kooperativlər haqqında

# Arayış

**2014**

# Almaniya

Almaniyada kooperativlər geniş yayılmış təşkilati hüquqi formadır. Kooperativlər Ticarət Məcəlləsi ilə tənzimlənir. Ticarət adı əsas fəaliyyət istiqamətini və "kooperativ" kəlməsini əks etdirməlidir. Minimum üzv sayı **yeddidir**. Qeydiyyat orqanı məhkəmədir və bu və ya digər səbəblərə görə kooperativi qeydiyyata almaya bilər. Kooperativlər aşağıdakı sənaye sahələri üzrə fəaliyyəti inkişaf etdirmək **məqsədi ilə təsis olunur**:

- ✓ Maliyyə -kredit təşkilatları
- ✓ Əmtəə birlikləri
- ✓ Kənd təsərrüfatı və sənaye məhsullarının topdan və pərakəndə satışı müəssisələri
- ✓ İstehsal sahələri
- ✓ Distributorluqlar
- ✓ Tikinti məqsədləri ilə kooperativ cəmiyyətlər və.s

Kooperativlər məqsədi mənfəət əldə etmək olmaqla yanaşı, **qeyri-kommersiya** məqsədləri üçün də yaradıla bilərlər. Kooperativin nizamnaməsi və əsasnaməsi yazılı şəkildə əks olunur. **Nizamnamə və əsasnamələrdə** aşağıdakı məlumatlar qeyd olunur:

- ✓ Kooperativin ticarət adı və baş ofisin yerləşdiyi ünvan
- ✓ Təsis olunma məqsədi
- ✓ Üzvlərin iştirak paylarını şərtləndirən, ləğv olunma müddəaları açıqlayan məlumatlar
- ✓ Üzvlərin ümumi yığıncağının yığılma qaydaları
- ✓ Kooperativin rəsmi elan vermə qaydaları
- ✓ Hər üzvün ala biləcək səhm sayları və.s

Kooperativin **idarə heyəti və müşahidə şurası** mövcuddur. Hər iki orqanın tərkibi kooperativin üzvlərindən ibarətdir. İcraedici orqan idarə heyətidir. Kooperativ qeydiyyatdan keçmiş **hüquqi şəxsdir**, müstəqil hüquq və öhdəliklərə malikdir, məhkəmədə iddiaçı və cavabdeh ola bilər, əmlak sahibi ola bilər və ya hər hansı əmlakda pay sahibi ola bilər.

# Finlandiya

Finlandiya kooperativlərin ən çox yayıldığı ölkələrdən biridir. Bu gün Finlandiyanın cəmi 5.3 milyon əhalisinin **3.5 milyonunun kooperativ üzvü** olduğu təxmin olunur. Hər **on iri şirkətdən biri**, hər yüz kiçik şirkətdən biri kooperativdir. Həmin kooperativlər vasitəsilə Finlandiyada 90 min Fin işlə təmin olunur və cəmi dövriyyə **30 milyard avroya** yaxındır.

Finlandiyada kooperativ əvvəlcədən iştirakçı saylarının və sərmayə payının müəyyən olmadığı birləşmədir. Kooperativ ən azı **3 fiziki və ya hüquqi** şəxsin birləşməsi nəticəsində təsis edilir. Təsisçilər kooperativin üzvü hesab olunurlar. Kooperativ üzvləri kooperativin öhdəliklərinə qarşı şəxsən məsuliyyət daşımırlar. Burada üzvlər müxtəlif paylara sahib olsalar da **"bir nəfər bir səs"** prinsipi mövcuddur. Bu gün ən çox yayılmış kooperativlər tikinti, kənd təsərrüfatı və sosial yönümlü sahədə fəaliyyət göstərən müəssisələrdir.

Finlandiyada xarici vətəndaşlar kommersiya təşkilatlarını qeydiyyatdan keçirərkən ən azı **bir təsisçi Avropa İttifaqı ölkəsinin vətəndaşı olmalıdır**. Həmin qayda yalnız kooperativlərə şamil olunmur. Finlandiya kommersiya şirkətləri, həmçinin kooperativlər 26% ilə mənfəət vergisinə cəlb olunurlar.

1 Yanvar 2014-cü il tarixindən Finlandiya hökuməti kooperativlər haqqında qanuna dəyişikliklər qəbul etmişdir. Həmin dəyişikliklərə görə kooperativlərin qeydiyyat məsələlərini sadələşdirilmiş, üzvlərdən və investorlardan vəsaitlərin qəbul edilmə prosesini sadələşdirilmişdir. Dəyişikliklərdə əsas məqsəd kooperativlərin təşkilati hüquqi forma kimi cəlbediciliyini artırmaqdır. Qanunda əks olunan müddəalar əsasən məhdud məsuliyyətli cəmiyyətdə olduğu kimidir. **Yeganə əsas fərq kooperativ üzvü işdən azad oluna bilər, məhdud məsuliyyətli cəmiyyətin təsisçiləri işdən azad oluna bilməz.** Digər yenilik ondan ibarətdir ki, kooperativlər səhmlərinin nominal dəyərinin olub-olmamasını özləri seçəcəklər.

# Niderland Krallığı

Niderland Krallığında kooperativlər əsasən **kənd təsərrüfatı sektorunu** inkişaf etdirmək məqsədi ilə təsis olunurdu. Bu gün isə kooperativlər iqtisadiyyatın bütün sahələrini əhatə edir. Kooperativlərin qeydiyyatı üzrə sənədlər minimum səviyyədə tələb olunur. Məsələn, Niderlandda hüquqi şəxs qeydiyyatı zaman Ədliyyə orqanından **"Etiraz etməmə"** haqqında bəyannamə tələb olunursa, kooperativlərdə bu sənəd tələb olunmur və qeydiyyat yalnız notarial qaydada bir neçə gün ərzində həyata keçirilir. Notariusda ödənilın rüsum **2500-3000 avrodur**. Qeydiyyat orqanı **Ticarət Palatasıdır**, minimum nizamnamə investisiyası tələb olunmur. Ən azı **iki üzv tərəfindən təsis edilə bilər**. Nizamnamədə kooperativin əsas fəaliyyət istiqaməti əks olunmalıdır. Kooperativlər mənfəət müəssisələridir və üzvlərinin maddi maraqlarını izləyirlər. Üzvlərin gəlirləri dividend vergisinə **cəlb olunmur**. Kooperativ mənfəət vergisinə **cəlb olunur**. Bu gün Niderlandda kooperativlərin vergiyə cəlb olunması üzrə vergi öhdəliklərinin əvvəlcədən müəyyənetmə sistemi mövcuddur (Advance Tax Ruling System). Niderlandda kooperativ **hüquqi şəxsdir**, əmlak və əsas vəsait sahibi ola bilər, məhkəmədə iddiaçı və təqsirli şəxs kimi çıxış edə bilər. Kooperativ üzvlərinə müəyyən etdiyi məsuliyyət məhdudiyytinə görə təsnifləndirilir. Əgər məsuliyyət məhdudlaşdırılmışdırsa kooperativin ticarət adı önündə **BA**, əgər məsuliyyət ümumiyyətlə yoxdursa **UA**, əgər məsuliyyət nə istisna edilmiş nə də məhdudlaşdırılmışdırsa **WA** yazılmalıdır.

Kooperativin əsas icraedici orqanı **İdarə Heyəti və Üzvlərin Ümumi Yığıncağıdır**. Həmçinin müşahidə şurası da təsis edilə bilər. Kooperativ İdarə Heyəti tərəfindən idarə olunur və idarəçilər **hüquqi və ya fiziki şəxslər** ola bilərlər. İdarə heyəti üzvlərin kooperativə qəbul olunmasına, üzvlərin hüquq və vəzifələrinin müəyyən olunmasına və üzvlərə xitam verilməsinə görə məsuliyyət daşıyır. Kooperativlər Ticarət Palatasına Üzvlərin ümumi yığıncağı tərəfindən təsdiq olunan illik hesabat təqdim etməlidirlər.

# Çİn Xalq Respublikası

Çində çoxməqsədli kooperativ iqtisadi təşkilatlar mövcuddur. Belə biznes qurumları iqtisadi sistemin müxtəlif sahələrində yaradılır. Kənd təsərrüfatı, təhsil, xidmət, istehsalat, elm və texnologiya və.s. sahələrdə yaradılan kooperativlər əsasən **birgə müəssisələr** şəklində olurlar. **Kooperativ Birgə Müəssisələri** məhdud məsuliyyətli **hüquqi şəxs** formasında yaradılırlar. Belə müəssisələrin tərəfləri kooperativin idarəetməsində ya məhdud məsuliyyətli cəmiyyət formasını ya da bütün üzvlərin tam məsuliyyətini nəzərdə tutan vahid biznes qurumu formasını seçə bilərlər. Kooperativ Birgə Müəssisəsinin gəliri iştirakçılar arasında birgə müəssisə müqaviləsinə əsasən bölünür və investisiyada payın həcmi əhəmiyyət kəsb etmir. Kooperativlər konkret məqsədlər üçün qisamüddətli və ya iri biznes layihələrini həyata keçirmək üçün uzunmüddətli yaradılırlar. Mövcud birgə müəssisələrin nəzarəti altında müqavilə əsasında yaradılan kooperativ müəssisələrin fəaliyyəti üçün heç bir xüsusi **lisenziya tələb edilmir**. Çin qanunvericiliyinə əsasən kooperativ birgə müəssisələrinin fəaliyyət müddəti müəyyənləşdirilməyib. Kooperativin iştirakçıları müqavilənin müddətini istədikləri vaxta qədər uzatmaq və ya ləğv etmək hüququnu əldə saxlayırlar. Həmçinin, kooperativin iştirakçıları kooperativdə yalnız maliyyə resursları ilə deyil, eyni zamanda, **qeyri-maliyyə resursları** (əqli mülkiyyət hüquqları, bina, avadanlıq və.s) ilə də təmsil oluna bilər.

Çində kooperativlərin ən geniş yayıldığı sahələrdən biri kənd təsərrüfatıdır. Bu sahədə yaradılan kooperativlər əsasən **üç kateqoriyaya** bölünür:

- Xüsusiləşmiş kooperativlər
- Səhmdar kooperativlər
- Assosiasiyalar

**Xüsusiləşmiş kooperativlər –** özünə xidmət, demokratik idarəetmə və kooperativ biznes əməliyyatları ilə xarakterizə olunur. Kooperativdə birləşmiş fermerlər müəyyən məhsul istehsalı ilə məşğul olur və əldə etdikləri gəlirləri bərabər bölürlər.

**Səhmdar kooperativlər –** kooperativ prinsiplər əsasında səhm sisteminə uyğunlaşdırılmış biznes qurumu. Belə kooperativlər əsasən kənd təsərrüfatı məhsullarının emalı, marketinqi, daşınması və anbarda saxlanması məqsədi ilə yaradılır.

**Assosiasiyalar –** Bu olduqca sərbəst formadır. Belə sosial iqtisadi kooperativ təşkilatlar fermerlər tərəfindən könüllülük və qarşılıqlı hörmət əsasında öz texnika və texnologiyalarını birləşdirmək yolu ilə istehsal, marketinq və xüsusi ferma məhsullarının emalı məqsədi ilə yaradılır.

## Amerika Birləşmiş Ştatları

ABŞ-da kooperativlər biznes və sosial təşkilat formalarında olub müxtəlif məqsədlər üçün yaradılırlar. Kooperativlərin üzvləri hüquqi və fiziki şəxslər ola bilərlər. Əldə edilmiş gəlirlər onun üzvləri arasında bölünür. Seçilmiş direktorlar şurasının rəhbəri kooperativin idarəedilməsini həyata keçirir. Digər üzvlər kooperativin idarəedilməsində səs hüququna malikdir. Şəxslər kooperativdə müəyyən payla onun üzvlərinə çevrilirlər, ancaq payların miqdarı onların səsvermə hüquqlarına təsir etmir. Digər sahibkarlıq formaları kimi, kooperativlər idarəetmə və əməliyyatların aparılması üçün hüquqi formada yaradılırlar.

Kooperativlər formalaşması digər biznes qurumlarından fərqlənir. Başlanğıc olaraq, belə biznes qurumlarının yaradılmasında əsas məqsəd bir qrup şəxs tərəfindən müəyyən bir biznes planın və ya strategiyanın həyata keçirilməsidir. Kooperativ sahibkarlıq fəaliyyəti müxtəlif təşkilati-hüquqi formaların birləşməsi statusunda olur. ABŞ-da kooperativlərin gəlirlərinin 85 faizi ümumilikdə 6 sahəni əhatə edir: kənd təsərrüfatı, ferma kredit sistemi, şəhərətrafı elektrik xidməti, sığorta və kredit təşkilatı. ABŞ-da kooperativ formada fəaliyyət göstərən şirkətlərin aşağıdakı **üstünlükləri və mənfi cəhətləri** var:

- **Daha az vergiyə cəlb edilmə.** Kooperativin gəlirləri onların üzvləri arasında bölünərək, ayrılıqda həmin üzvlər vergiyə cəlb edilir. Bununla da, kooperativin üzvlərinə ödədikləri dividentlərə (gəlirə) görə, o cümlədən, öz gəlirinə görə vergiyə cəlb edilmir.
- **Qrant əldə etmə imkanı.** Kooperativin növündən asılı olaraq, ABŞ hökuməti müxtəlif sahələrdə kooperativ yaradaraq fəaliyyət göstərən biznes qurumlarına müəyyən yardımlar ayrılır. Məs: USDA Şəhərətrafı İnkişaf proqramı çərçivəsində şəhərətrafında (kənd ərazilərində) yaradılan kooperativlərin inkişafına dövlət tərəfindən böyük yardım göstərilir.

- **Xərclərin azaldılması, mal və xidmətin kəmiyyət və keyfiyyətinin artırılması.** Kooperativlər daha asanlıqla malın və xidmətin keyfiyyətini və kəmiyyətini artırmaq imkanı var. Belə ki, bu cür biznes strukturlarında müxtəlif təşkilati-hüquqi formada olan qurumlar təmsil olunduğundan və belə qurumların biznesin müxtəlif sahələrində fəaliyyəti kooperativlərə geniş maliyyə və texnologiya imkanı yaradaraq, bazarda aparıcı qüvvəyə çevrilməsinə səbəb olur.
- **Daimi mövcudluq imkanı.** Kooperativə yeni üzvlərin qəbul edilməsi və ya üzvlərin tərk edilməsi biznes strukturunun dağılmasına səbəb olmur.
- **Demokratik struktur.** ABŞ-da Kooperativlərin üzvləri kooperativdəki paylarına əsasən səsvermə hüququ yoxdur. "Bir üzv bir səs" prinsipi əsasında idarə olunur.

**İnvestorlardan investisiyanın az cəlb edilmə halının mənfi cəhət kimi xarakterizə etmək olar.** Belə ki, "bir iştirakçı bir səs" prinsipi əsasında fəaliyyət göstərən kooperativlər kiçik investorlar üçün cəlbedici olsa da, iri investorların maraqlarına uyğun gəlmir. Çünki, belə bir şəraitdə iri investor kooperativdə böyük həcmdə paya malik olmasına baxmayaraq, qərar qəbul edilməsində üstünlüyü olmur.

## Avstriya

Avstriyada kooperativlər ayrıca hüquqi şəxs olub, dəyişən iştirakçılarının olması ilə xarakterizə olunur. İştirakçıların məsuliyyəti kooperativin formasından və statusundan asılıdır. Bu sahədə əsas qanunvericilik aktı Avstriya Kooperativ Qanunu hesab edilir. Həmin qanuna əsasən kooperativlərin əsas məqsədi iştirakçılarının iqtisadi, sosial və ya mədəni statusunu artırmaqdır. Kooperativlərin strukturu qanunvericiliyə əsasən üç idarəetmə qrupundan ibarət olmalıdır: ən yuxarı qərar orqanı kimi Baş Assambleya və ya Baş Assambleya Təmsilçiliyi, ən azı üç nəfərdən ibarət Müşahidə Şurası və Direktorlar Şurası. Bundan başqa, Qanun kooperativin əsas aspektlərini də tənzimləyir: hüquq və öhdəlikləri, kapital formasiyasını, ziddiyyətli məsələləri və ləğvetmə məsələlərini və.s. Kooperativin hüquqi forması kiçik sahibkarlıq məqsədləri üçün istifadə edilə bilməz.

Qanunvericiliyə əsasən kooperativlər **iki formada** qeydiyyatdan keçə bilərlər:

- ✓ **Kommersiya kooperativləri**
- ✓ **Qeyri-Kommersiya kooperativləri**

**Kommersiya kooperativlərində** nizamnamə kapitalı olmalıdır və gəlir götürmək məqsədi ilə yaradılır. Kommersiya kooperativləri iştirakçıların tərkibinə görə üç qrupa bölünür:

- ✓ **Assosasiyalar** – 2 və daha çox kooperativin iştirakı ilə
- ✓ **Federasiyalar** – 2 və daha çox assosasiyanın iştirakı ilə
- ✓ **Digər kommersiya kooperativləri** – 5 və ya daha çox aktiv üzvün iştirakı ilə

- ✓ **Qeyri-Kommersiya kooperativləri** məqsədi iştirakçılarına gəlir gətirmək olmayan qeyri-kommersiya qurumlarıdır. Belə təşkilatların strukturu kommersiya kooperativlərinə oxşardır.

## Nəticə

Araşdırmalar zamanı kooperativlərin müxtəlif növlərinin dünyanın inkişaf etmiş iqtisadiyyatlarında mövcud olduqları müəyyənləşdirilmişdir. Avropa ölkələrinin əksəriyyətində, Çin, Avstraliya, Yeni Zelandiya, ABŞ, Kanada, Argentina, Rusiya, Yaponiya və.s. kimi ölkələrdə kooperativ müəssisələrin müxtəlif növləri mövcuddur. Kooperativlər idarəetmə formasına görə bir neçə tipə bölünürlər :

- ✓ Qeyri-monetar kooperativlər
- ✓ İşçi kooperativlər
- ✓ Könüllü kooperativlər
- ✓ Sosial kooperativlər
- ✓ İstehlakçı kooperativləri
- ✓ Biznes və məşğulluq kooperativləri

Kooperativlər biznes qurumları kimi dünyanın bir çox ölkələrində artan tendensiya ilə tətbiq edilməkdədir. Kooperativ şəkildə fəaliyyət göstərmək istəyən firmaların və şəxslərin əsas məqsədi müəyyən bir məhsulun istehsalını daha az xərclə daha keyfiyyətli etməkdir. Bu məsələ təkcə istehsal sektorunda deyil, iqtisadi sistemin digər sahələrində də tətbiq edilməkdədir. Belə ki, kooperativ şəkildə biznes fəaliyyəti göstərən hüquqi və fiziki şəxslərin maliyyə resursları kifayət qədər olduğuna görə belə təşkilatlar bazarda tezliklə böyük paya malik olma imkanı əldə edirlər. Eyni zamanda, bir çox ölkələrdə kooperativlər vergi güzəştləri əldə edirlər. Yalnız onun iştirakçıları kooperativdən əldə etdikləri gəlirə görə vergiyə cəlb edilirlər.

Beynəlxalq Kooperativ Alyans təşkilatı ilə Kooperativ və İctimai Müəssisələr üzrə Avropa Tədqiqat İnstitutunun birgə hesabatı olan "The World Co-operative Monitor Report" hesabatının 2013-cü il buraxılışına əsasən 56 ölkə üzrə 2.032 min kooperativin ümumi dövriyyəsi 2.6 trilyon ABŞ dollarına bərabərdir.

Hesabatda ümumi dövriyyəsi illik 100 milyondan çox olan kooperativlərə nəzər salsaq ABŞ (662.23 mlrd ABŞ dolları), Fransa (363 mlrd ABŞ dolları), Yaponiya (358 mlrd ABŞ dollar), Almaniya (284.08 mlrd ABŞ dolları) və Niderlandın (116.23 mlrd ABŞ dolları) dünyanın ilk beşliyində qərarlaşdığını görmək olar. Sektorlar üzrə kooperativlərin ən çox fəaliyyət göstərdiyi sahələrə kənd təsərrüfatı (32%), sığorta (25%), topdansatış və pərakəndə

satış (18%), sənaye və kommunal xidmət (9%), bank və maliyyə sektoru (6%) və digər xidmətlər(10%) aiddir.

Dünya ölkələrində təşkilati hüquqi forması kooperativ olan bir çox nəhəng şirkətlər fəaliyyət göstərir. Məsələn, kənd təsərrüfatı sahəsində Zen-Noh (Yaponiya) - 62.44 mlrd ABŞ dolları, CHS Inc. (ABŞ) -36.92 mlrd ABŞ dolları, NACF (C.Koreya) – 31.27 mlrd ABŞ dolları ilə göstərilən kooperativlər dünya reytinqində ilk üç yerdə qərarlaşırlar. Topdansatış və pərakəndə satış sektoru üzrə dövriyyələrinə görə ReWeGroup (Almaniya), ACDLEC-E.Leclerc(Fransa) və Edeka Zentrale (Almaniya) ilk üç yeri paylaşırlar. Bank və maliyyə sektorunda ən böyük kooperativlər Groupe Credit Agricole(Fransa), Groupe BPCE (Fransa) və Groupe Credit Mutuel (Fransa) hesab edilir.